# Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan xalqını təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə rəsmi “Instagram” səhifəsində Azərbaycan xalqını təbrik edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda qeyd edilir: “9 Noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə hər birinizi təbrik edirəm! Qoy üçrəngli bayrağımız müstəqil Azərbaycanın üzərində daim əzəmətlə dalğalansın!

Xalqımıza cansağlığı, səadət, xoş günlər və sevgi, Vətənimizə isə rifah, sülh və tərəqqi arzulayıram!”

❖ ❖ ❖

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 12 Noyabr - Konstitusiya Günü münasibətilə rəsmi “Instagram” səhifəsində Azərbaycan xalqını təbrik edib.

AZƏRTAC xəbər verir ki, təbrikdə qeyd edilir:

“Əziz həmvətənlər!

Sizi Azərbaycan Respublikasının Konstitusiya Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram. Arzu edirəm ki, Azərbaycanın uğurlu inkişafı davamlı olsun, ölkəmizdə daim sülh, sabitlik, əmin-amanlıq və təhlükəsizlik hökm sürsün!”

Azərbaycan.- 2019.- 13 noyabr.-S. 1.